Nazirliyin sifarişinə əsasən “Çaşıoğlu” nəşriyyatı tərəfindən 24 adda müxtəlif təlim vəsaitləri, metodik ədəbiyyat, test kitabları, masaüstü oyunlar, uşaqlar üçün nağıl kitabları və s. hazırlanaraq məktəbəqədər müəssisələrə çatdırılıb.

2009-cu ildə 19 məktəbəqədər təhsil müəssisəsində əsaslı təmir işlərinin aparılması nəzərdə tutulub.

Məlumat üçün qeyd edək ki, hazırda respublika üzrə 103 900 uşağı əhatə edən 1658 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Təhsil Nazirliyi sistemində olan 1592 məktəbəqədər müəssisədə 98 029 uşaq tərbiyə alır. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 4 məktəbəqədər xüsusi təhsil müəssisəsi, ümumi təyinatlı 9 müəssisədə 18 xüsusi təyinatlı qrup fəaliyyət göstərir. Bununla yanaşı, 5 sanator tipli məktəbəqədər təhsil müəssisəsi də mövcuddur. Eyni zamanda Təhsil Nazirliyi tərəfindən lisenziya almış 6 özəl məktəbəqədər təhsil müəssisəsi də fəaliyyət göstərir.

Respublika üzrə məktəbəqədər təhsil müəssisələrinə uşaqların cəlbi 16,3% təşkil edir.